**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# CƏNUBİ QAFQAZIN TƏHLÜKƏSİZLİK PROBLEMLƏRİ: QLOBAL VƏ REGİONAL AKTORLARIN GEOSİYASİ MARAQLARI

İxtisas: 5901.01- "Beynəlxalq münasibətlər"

Elm sahəsi: Siyasi elmlər

**İddiaçı: Ramazanova Aytən Şahinovna**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı-2021**

Dissertasiya işi AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Kərəm Cahangir oğlu Məmmədov**

**Rəsmi opponentlər:** Siyasi elmlər doktoru, professor
**Elman Xudam oğlu Nəsirov**

Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Ləman Zahid qızı Qarayeva**

Siyasi elmlər üzrə fəlsəfə doktoru
**Eldar Arif oğlu Cəfərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası

**Dissertasiya şurasının sədri:**

akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi:

siyasi elmlər doktoru, prof. əv.
**Ziyafət Ziya qızı Həbibova**

Elmi seminarın sədri:

siyasi elmlər doktoru, prof. əv.
**Adil Mirabdulla oğlu Mirabdullayev**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir beynəlxalq münasibətlər sistemində baş verən dərin geosiyasi dəyişikliklər və transformasiyalar dövlətlərin milli və regional təhlükəsizliyin təmin edilməsində qarşılaşdıqları yeni çağırışların, təhdidlərin və problemlərin yaranmasını şərtləndirir. Bir çox qüvvələrin və aktorların maraqlar və ziddiyyətlərinin qovuşma mərkəzi olan Cənubi Qafqazın geosiyasi və geoiqtisadi əhəmiyyəti, mədəni, tarixi, demoqrafik, etnolinqvistik amillər və fərqliliklərin mövcudluğu, ərazi iddiaları bölgənin təhlükəsizlik mühitini müəyyənləşdirir və xarakterizə edir. Buna əsaslanaraq qeyd etmək lazımdır ki, Cənubi Qafqazın problemləri ilk növbədə bölgə dövlətlərinin maraqlarına təsir göstərir. Azərbaycanın milli təhlükəsizliyi üçün əsas təhdid beynəlxalq səviyyədə tanınmış öz torpaqlarında 30 illik erməni işğalı idi ki, 44 günlük Vətən Müharibəsi nəticəsində Azərbaycan özü bu işğala son qoydu. Gürcüstanın təhlükəsizliyi üçün isə əsas təhdidlər - Abxaziya və Cənubi Osetiya münaqişələri, həmçinin region ölkələri üçün bölgənin hərbiləşdirilməsi, terrorism, narkotik ticarəti və s. təhdidlər əsas hesab edilir. Azərbaycanın erməni faşizmi üzərində qazandığı Böyük Qələbənin nəticəsi olan müasir geosiyasi reallıq şəraitində, bölgədəki təhlükəsizlik amili, ilk növbədə, erməni revanşizmi və onu dəstəkləyən bəzi aparıcı geosiyasi ermənipərəst aktorların mövqeləridir.

Bölgədə təhlükəsizlik və sabitliyin yaradılmasında xüsusi rol "Qafqazda sülh", "Ümumi Qafqaz Evi" ideyasının və konsepsiyasının banisi olan Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevə məxsusdur. Heydər Əliyevin Qafqazdakı sülh ideyasının mərkəzində “vətəndə sülh”, “bölgədə sülh”, “bütün dünyada sülh!” konseptual modeli dayanırdı. Eyni mövqe Prezident İlham Əliyev tərəfindən dəstəklənir və Cənubi Qafqaz ölkələrini regional əməkdaşlığa və sülh içində yaşamağa çağırır.

Beləliklə, tədqiqat işinin mövzusunun aktuallığı aşağıdakı müddəalarda ifadə edilə bilər:

Birincisi, Cənubi Qafqazın ayrılmaz, geosiyasi geostrata kimi quruluşunu öyrənmək, bu bölgənin geosiyasi xüsusiyyətlərini

geosiyasi nəzəriyyələr və anlayışlar çərçivəsində təhlil etmək maraq doğurur;

İkincisi, daxili, xarici və transmilli amillərin mürəkkəb, çox səviyyəli bir quruluşu ilə müəyyən olunan Cənubi Qafqazın təhlükəsizlik arxitekturası yeni tip təhdidlərin meydana çıxması ilə onların həlli üçün müasir tipli müharibələrin aparılmasının öyrənilməsini vacib edir.

Üçüncüsü, tədqiqatın aktuallığını müəyyənləşdirən əsas xarici amil Cənubi Qafqazda beynəlxalq münasibətlərin aktorlarının mənafe və maraqlarının olmasıdır. Regional aktorlar kimi İran, Türkiyə, İsrail, həmçinin regional təşkilatlar və birliklər - NATO, ATƏT-i, qlobal aktorlar kimi isə ABŞ, Rusiya, Çin, Aİ-ni qeyd etmək olar. Bir çox fərqli maraq və hədəflərin olması bölgəni rəqabət və qarşıdurma sahəsinə çevirir və bununla da təhlükəsizlik məsələlərinin həllini çətinləşdirir. Lakin buna baxmayaraq, bölgə dövlətləri, yuxarıda qeyd etdiyimiz kimi revanşist istəklərini nümayiş etdirməyə davam edən, Ermənistan istisna olmaqla, ikitərəfli və çoxtərəfli münasibətlər səviyyəsində təhlükəsizliyin təmin olunması üçün səy göstərirlər, beynəlxalq təşkilatlar isə sülhün və regional təhlükəsizliyin təmin edilməsi üçün müxtəlif modellərin hazırlanmasında fəal iştirak edirlər;

Dördüncüsü, Cənubi Qafqaz regionunun lider-dövləti olan Azərbaycanın geosiyasi quruluşundakı yeri və rolunun öyrənilməsi xüsusi əhəmiyyətə və aktuallığa malikdir. Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə otuz illik erməni işğalı və ədalətsizliyə son qoymuş və Azərbaycanın qələbəsi ilə başa çatmış 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqazın dəyişilmiş geosiyasi konfiqurasiyasını öyrənmək xüsusilə Azərbaycan dövlətçiliyi və siyasi elmi üçün aktualdır.

Beləliklə, yuxarıda göstərilən amillər və müddəalar seçilmiş tədqiqat mövzusunun kifayət qədər aktuallığını, əhəmiyyətini və Cənubi Qafqazın təhlükəsizlik problemlərinin qlobal və regional aktorların geosiyasi maraqları kontekstində dərin bir sistematik elmi təhlilin zəruriliyini müəyyənləşdirir.

Cənubi Qafqazın təhlükəsizlik problemləri müxtəlif istiqamətlərdə bir çox xarici və yerli müasir siyasi elmi tədqiqatçıları

tərəfindən öyrənilmişdir. Tədqiqat mövzusunun işlənmə dərəcəsini təhlil edərək müxtəlif aspektlərinə həsr olunmuş bir-birini tamamlayan üç tədqiqat qrupunu ayırd edə bilərik. Birinci qrupa Cənubi Qafqazın əhəmiyyətini müəyyənləşdirən geosiyasi xüsusiyyətlərin və amillərin ən vacib tərəflərini araşdıran müəlliflərin əsərləri, həm klassik, həm də müasir geosiyasi nəzəriyyələr kontekstində geosiyasi kateqoriyalar və əsas elementlərin təhlili daxildir.

Klassik geosiyasət nəzəriyyələrinin müəllifləri arasında Cənubi Qafqazın dünya sivilizasiyasındakı yerini və rolunu geosiyasətin ilk qanunu olan tellurokratiya ilə talassokratiya arasındakı mübarizənin əsasında öyrənən K. Haushofer, H.Makkinder, N. Spaykman , V. Semyonov-Tyan-Şanskiy və başqalarını qeyd etmək olar. [1] Regionda baş verən müasir geosiyasi proseslərin öyrənilməsində Zb. Brzezinski, S. Kohen, A. Kohen, C. Hantington, F. Fukuyama, R. Kaplan, J. Qaltunq, A. Strauss kimi alimlərin əsərlərini, [2] eləcə də bu kontekstdə Cənubi Qafqazın geosiyasi, geoiqtisadi, coğrafi, mədəni, ideoloji aspektlərini nəzərdən keçirən rus və Azərbaycan müəllifləri arasında L. Gumilyov, A.G. Dugin, K.S. Hacıyev, S.S.

---

[1] Spykman, N.J. The Geography of Peace/N.J. Spykman. - New York: Harcourt, Brace and Co., - 1944. - 66 p.; Маккиндер, Х. Географическая ось истории // Элементы. Евразийское обозрение. - Москва, - 1996. № 7; Хаусхофер, К. Границы в их географическом и политическом значении. В кн.: О геополитике. Работы разных лет/ К. Хаусхофер. - Москва: Мысль, - 2001. - 127 с.; Семёнов-Тянь-Шанский, В.П. О могущественном территориальном владении применительно к России / В.П. Семёнов-Тянь-Шанский. - Петроград, - 1915. - Т. 51. -492 с.

[2] Бжезинский, Зб. Великая шахматная доска. Господство Америки и ее геостратегические императивы/Зб. Бжезинский. – Москва, -2009. -280 с.; Cohen, S.B. Geopolitics of World System/S.B. Cohen. – New York: Rowman & Little field publishers, - 2002. - 803 p.; Huntington, S. The clash of civilizations and the remarking of world order/ S.P. Huntington. – New York, First Touchstone Edition, -1997. -367 p.; Фукуяма, Ф. Конец истории и последний человек / Ф. Фукуяма, пер. с англ. М. Б. Левина. — Москва: АСТ, - 2007. — 588 с.; Каплан, Р. Месть географии /Р. Каплан, пер. с англ. М. Котова. – Москва: Ко-Либри, -2015. - 290 с.

Jiltsov, İ.S. Zonn, A.M. Uşkov, V.A. Hüseynov, G. Əliyev, B. Rumer, P.G. Darabadi kimi alimlərin əsərlərini qeyd etmək olar. [3]

Mövzunun elmi işlənmə dərəcəsinin ikinci təhlil qrupunu təşkil edən Cənubi Qafqazdakı təhlükəsizlik problemlərinin müxtəlifliyi, milli təhlükəsizlik nəzəriyyəsinin əsas konseptual tədqiqatları A.A. Proxojev, A.İ. Ovçinnikov, A. Y. Mamıçev, A.G. Kravçenko, D.V. Zerkalovun əsərlərində öz əksini tapmışdır. [4] Regional təhlükəsizlik nəzəriyyəsinin əsaslarını (sekuritizasiya), regional təhlükəsizlik sistemini daha yaxşı başa düşmək üçün fərqli təhlükəsizlik sektorlarını kompleks şəklində müəyyənləşdirməyin vacibliyinə inanan Kopenhagen Məktəbinin nümayəndələri B. Buzan, Ole Vever, Yaap de Vilde tərəfindən ətraflı təhlil edilmişdir. [5]

Həmçinin tədqiqatçılardan S. Kornell, Tomas De Vaal və başqaları Cənubi Qafqazda münaqişələrin tədqiqinə, xüsusən də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin öyrənilməsinə öz töhfələrini vermişdilər. Azərbaycan müəllifləri arasında Azərbaycanın milli təhlükəsizlik məsələlərinin araşdırılmasında, Qafqazdakı tarixi sənədlərin və proseslərin, eləcə də postsovet məkanında Cənubi Qafqazın müstəqil dövlətlərinin formalaşması və inkişafı problemlərini nəzərdən keçirən və tədqiq

---

[3] Гумилев, Л. Теория этногенеза: великое открытие или мистификация?: [сборник статей к 100-летию со дня рождения ученого] /сост. М. Зильберт, отв. ред. Ф. Бастиан. - Москва: АСТ, -2013. - 702 с.; Дугин, А.Г. Геополитика: Учебное пособие для вузов/ А.Г. Дугин. — Москва: Академический Проект; Гаудеамус, - 2011.—583с. и др.; Гаджиев, К.С. Геополитика: учебник для акад. Бакалавриата /К.С. Гаджиев. 5-е изд., пер. и доп. - Москва: Юрайт, - 2014.- 466 с. и др.; Зонн, И. С. Каспийская трубопроводная геополитика. Состояние и реализация/ И. С. Зонн, С. С. Жильцов. - Москва: Восток-Запад, -2011. - 317 с. и др.; Дарабади, П. Г. Кавказ и Каспий в мировой истории и геополитике XXI века/ П.Г. Дарабади. - Москва: Изд-во Весь Мир,- 2010. - 216с. и др.

[4] Buzan, B. Security: A New Framework for Analysis: [Electronic resource] /B. Buzan, O. Weaver, Jaap de Wilde. - London: Boulder, CO: Lynne Rienner, - 1998. – p. 239. URL:https://ru.scribd.com/doc/243026486/Buzan-Barry-Security-a-New-Framework-for-Analysis

[5] Cornell, S.E. Small Nations and Great Powers. A Study of Ethnopolitical Conflict in the Caucasus /S.E. Cornell. - Curzon Press, -2001; Томас, де Ваал. Черный сад: Армения и Азербайджан между миром и войной /Д. В. Томас, пер. с англ. Акрятинский О. – Москва, - 2005, - 413 с.

edən müəlliflərdən E. Mirbaşiroğlu, R.A. Hüseynzadə, E. Əhmədov, A. B. Mirzəzadə, E. İsmayılov, C. Eyvazov və başqalarını qeyd etmək olar. [6]

Eyni zamanda qeyd etmək lazımdır ki, son illərdə Azərbaycan Respublikasının xarici siyasətinin müxtəlif aspektlərini araşdıran həm yerli, həm də xarici bir çox fundamental əsərlər meydana gəlmişdir. Burada, xüsusən, Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin 2003-cü ildə nəşr olunan "Azərbaycanın Xəzər nefti" əsəridir. Bu əsərdə Azərbaycanın enerji diplomatiyası, Xəzər dənizinin hüquqi statusu, "əsrin müqaviləsi", region ölkələri ilə münasibətlər kimi mühüm məqamlar təsvir olunur. Habelə Azərbaycanın xarici siyasəti, regional və milli təhlükəsizliyi, Azərbaycanın konkret ölkələr və təşkilatlar ilə əlaqələrinin inkişaf dinamikasını əks etdirən elmi-nəzəri məsələlərin təhlilində xüsusi əhəmiyyətli tədqiqatlar aparmış Azərbaycan müəlliflərindən Ramiz Mehdiyev, Əli Həsənov, Hafiz Paşayev, Hikmət Babaoğlu, Ağalar Abbasbəyli və başqalarının adlarını çəkə bilərik. [7]

Beləliklə, elmi ədəbiyyatın təhlilindən göründüyü kimi, nəzərdən keçirilən problemin bəzi məqamları həm yerli, həm də xarici müəlliflərin bir sıra əsərlərində öz əksini tapsa da, ümumiyyətlə, Cənubi Qafqazın qlobal və regional aktorların geosiyasi maraqları

---

[6] Эйвазов, Дж. Державы и регионы: системный анализ безопасности постсоветского пространства// Институт Стратегических Исследований Кавказа/ Дж. Эйвазов. - Стокгольм: ИД CA&CC Press, -2015. -320 с.; Mirzəzadə, A.B . Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi: tarixi, mövcud durum və həlli yolları/A.B. Mirzəzadə.- Bakı:"Azərbaycan", -2015, -206 s.

[7] Алиев, И.Г. Каспийская нефть Азербайджана/И. Г. Алиев. - Москва: Известия,- 2003. -411 с.; Пашаев, Х. «Манифест одного посла. О том, как начиналась дипломатическая миссия Азербайджана в Америке» / Х. М. Пашаева. - Баку: Развитие регионов,- 2009.- 356 с.; Babaoğlu, H. Heydər Əliyev siyasi irsinin politoloji aspektləri/H.Babaoğlu. – Baki:MSA, -2013. - 456 s. və s.; Mehdiyev, R.Ə. Avropa strukturlarının deqradasiyasının mənbələri haqqında və ya Azərbaycana münasibətdə ikili standartlar siyasəti/R.Ə. Mehdiyev. -Bakı: Şərq-Qərb Nəşriyyat evi, -2015. - 200 s.; Гасанов, А. М. Политика национального развития и безопасности Азербайджанской Республики /А.М. Гасанов. – Баку: «Zərdabi LTD» ММС, -2014. -672 с. и др.

kontekstində təhlükəsizlik problemlərini kompleks şəklində öyrənilməsinə xüsusi həsr olunmuş əsər yoxdur. Bu baxımdan seçilmiş mövzunun araşdırılması, sistemləşdirilməsi və ümumiləşdirilməsi, müasir elmi ədəbiyyatda kifayət qədər inkişaf etməməsi bu işin seçilməsini və hədəf qoyulmasını müəyyənləşdirdi.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Cənubi Qafqazın geosiyasi ölçüdə təhlükəsizlik problemi və bu kontekstdə qlobal və regional aktorların geosiyasi maraqlarıdır. Tədqiqatın predmeti isə Qafqaz dövlətlərinin, eləcə də qlobal və regional aktorların bölgədə sülhün təmin edilməsinə dair siyasəti, Cənubi Qafqazın təhlükəsizliyi kontekstində qlobal və regional aktorların geosiyasi maraqlarının xüsusiyyətləri və eyni zamanda bölgə ölkələrinin xarici qüvvələrlə ikitərəfli və çoxtərəfli formatda əlaqələrinin inkişafını müəyyən edən amillərdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Cənubi Qafqazın geosiyasi əhəmiyyətini müəyyən etmək, bölgə dövlətlərinin ənənəvi və yeni təhdidlərinin və təhlükəsizlik çağırışlarının mahiyyətini müəyyənləşdirmək, dinamik olaraq dəyişən regional və beynəlxalq vəziyyəti nəzərə alaraq Cənubi Qafqazda ayrı-ayrı ölkələrin və təşkilatların təhlükəsizlik modellərini və onların praktiki əhəmiyyətini təhlil etməkdir.

Bu məqsədə nail olmaq üçün dissertasiyada aşağıdaki tədqiqat vəzifələri müəyyən edilmiş və yerinə yetirilmişdir:

- Cənubi Qafqazdakı geosiyasi vəziyyəti klassik və müasir nəzəriyyələr və anlayışlar kontekstində öyrənmək, bölgənin geosiyasi əhəmiyyətini xarakterizə edən əsas amilləri müəyyənləşdirmək;
- Cənubi Qafqazın daxili, xarici və transmilli amillərini və təhlükəsizlik problemlərini təhlil etmək, regional təhlükəsizlik sistemində Cənubi Qafqaz dövlətlərinin milli təhlükəsizliyi üçün əsas problem və təhdidləri müəyyənləşdirmək;
- Cənubi Qafqazın qlobal və regional aktorlarının maraqlarını, geosiyasi fəaliyyətlərini təhlil etmək;
- ABŞ, Çin, Rusiya və Aİ-nin Cənubi Qafqazdakı geosiyasi fəaliyyətinin və maraqlarının xüsusiyyətlərini, qlobal aktorların bölgə dövlətləri ilə qarşılıqlı əlaqələrinin inkişaf dinamikasını və perspektivlərini öyrənmək;

- Regional aktorların (Türkiyə, İran, İsrail, NATO, ATƏT) Cənubi Qafqazdakı rolunu və maraqlarını müəyyənləşdirmək;
- Cənubi Qafqazın təhlükəsizlik problemlərinin həllində qlobal və regional aktorların siyasətini öyrənmək, müxtəlif əməkdaşlıq modellərini nəzərdən keçirmək, qlobal və regional dövlətlərlə Cənubi Qafqaz dövlətləri arasında təhlükəsizliyin təmin edilməsində həm üst-üstə düşən mövqeləri, həm də yanaşmalardakı fərqləri vurğulamaq;
- Müasir mərhələdə Cənubi Qafqazda sabitlik və təhlükəsizliyin təmin edilməsi məsələlərində bölgənin və dünyanın aparıcı aktorları ilə Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətini təhlil etmək.

**Tədqiqat metodları.** Dissertasiyanın metodoloji əsası müqayisəli, politoloji analiz və sintez, induksiya və deduksiya, sənədlərin təhlili və kontent-analiz metodlarının istifadəsinə əsaslanır. Həmçinin, struktur-funksional, sistemli, institusional, tarixi yanaşmalar çərçivəsində müvafiq tədqiqat metodlarından istifadə edilmişdir.

Sistemli yanaşmaya əsaslanan struktur-funksional analiz Cənubi Qafqazdakı müxtəlif regional və beynəlxalq strukturların qarşılıqlı əlaqələrini, məqsədlərini, maraqlarını, funksiyalarını və geosiyasi vəziyyətə təsir dərəcəsini öyrənməyə imkan verir.

Tarixi-müqayisəli metod müəllifə Cənubi Qafqazdakı vəziyyətin inkişafının retrospektiv dinamikasını öyrənməyə imkan verir. Cənubi Qafqazın yeni müstəqil dövlətlərinin formalaşmasının ilkin tarixi mərhələsində ənənəvi aktorlar üstünlük təşkil edirdisə, zamanla geosiyasi vəziyyətin dəyişməsi və bölgənin əhəmiyyətinin artması ilə fərqli geosiyasi mövqelərə malik qeyri-regional qüvvələr və birliklər meydana çıxır və regional təhlükəsizliyin təmin edilməsində, regional problemlərin həlli yollarının axtarılmasında fəal rol oynayırlar.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:
- Cənubi Qafqazın müasir konfiqurasiyası geosiyasi, geoiqtisadi, geostrateji və geomədəni amillərlə və habelə təcavüzkar Ermənistan

üzərində Azərbaycanın - bölgədəki lider dövlətin, Qələbəsi ilə müəyyən edilir;
- Cənubi Qafqazın inkişaf perspektivləri, milli təhlükəsizliyin təmin edilməsində strateji tərəfdaşların seçilməsi, bölgədəki münaqişələrin həllinə dair fərqli yanaşma, kollektiv təhlükəsizlik sisteminin yaradılmasında müəyyən çətinliklər yaradır;
- Cənubi Qafqaz Rusiya, ABŞ, Çin, İran, Türkiyə, İsrail, NATO, ATƏT, Aİ kimi qlobal və regional aktorların geosiyasi və strateji maraqları baxımından xüsusi əhəmiyyət kəsb edir;
- Azərbaycanın xarici siyasəti Prezident İlham Əliyevin bu gün uğurla inkişaf etdirdiyi, "ağıllı diplomatiya" və "çevik siyasət" kimi xarakterizə edilə bilən iqtisadi və siyasi praqmatizmə əsaslanan Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi hesab edilir. Prezident İlham Əliyevin xarici siyasəti və diplomatiyası təhlükəsizliyin və milli maraqların təmin edilməsinə, bölgənin aparıcı aktorları ilə güclü hərbi-siyasi, iqtisadi və hüquqi ittifaqların yaradılmasına və dərinləşdirilməsinə yönəldilib, bunun sayəsində Azərbaycan regional təhlükəsizlik sistemində mühüm rol oynayan geostrateji mərkəz və regional lider kimi çıxış edir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi ilk növbədə tədqiqat probleminin quruluşu ilə müəyyənləşdirilir və konkret olaraq aşağıdakı müddəalarda ifadə olunur:
- Müasir geosiyasi nəzəriyyələr olan neoatlantizm, neomondializm, neoavrasiyaçılıq və İslam inteqralizmi nəzəriyyələri çərçivəsində Cənubi Qafqazı ayrılmaz bir sistem, geosiyasi geostrata olaraq öyrənilməsinə cəhd etmək;
- region dövlətlərinin milli təhlükəsizlik siyasətində qəbul edilmiş rəsmi doktrinalar və konsepsiyalar çərçivəsində Cənubi Qafqazın təhlükəsizliyinin müxtəlif aspektlərini üzə çıxaran lokal, regional və qlobal problemlərinin kompleks şəkildə araşdırılması və təhlili, eyni zamanda təhlükəsizlik təhdidlərinin səviyyəsini gərginlik dərəcəsinə görə vurğulamaq və bununla da Cənubi Qafqazın təhlükəsizliyinin çoxsəviyyəli təhdid sisteminin arxitekturasını yaratmaq cəhdi;
- Cənubi Qafqazdakı əsas aktorları müəyyənləşdirmək və onların geosiyasi maraqlarını nəzərə almaq, regional təhlükəsizliyin təmin edilməsi probleminin həllinə dair oxşar və fərqli yanaşmaları təhlil

etmək cəhdi. L.Eylerin həndəsi dairələrini istifadə edərək Cənubi Qafqaz bölgəsində mövcud olan ziddiyyətli, əks ittifaqlar və geosiyasi əməkdaşlıq modellərini nəzərdən keçirmək və təsvir etmək;
- Azərbaycan ilə Qafqaz-Xəzər bölgəsinin regional və qlobal aktorları arasında əlaqələrinin inkişaf dinamikasını qrafik şəkildə göstərməyə cəhd edildi.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin əsas müddəaları və nəticələri, regional və qlobal dövlətlərin xarici siyasətinin həyata keçirilməsində, regional və milli təhlükəsizlik məsələlərini qiymətləndirərkən Cənubi Qafqaz dövlətləri ilə əlaqələrin qurulması prosesində istifadə edilə bilər. Bundan əlavə, bu tədqiqatın nəticələrindən bu sahə üzrə mütəxəssislərin hazırlanmasında, Cənubi Qafqazdakı təhlükəsizlik problemləri mövzularında metodiki dərsliklərin hazırlanmasında istifadə edilə bilər, həmçinin ali təhsil müəssisələrində geosiyasət, politologiya, konfliktologiya, regionşünaslıq, beynəlxalq münasibətlər nəzəriyyəsi və dünya siyasəti kurslarının tədrisi zamanı, eləcə bu sahədəki araşdırmalar, elmi konfranslar hazırlamaqda faydalı ola bilər.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiyada irəli sürülən əsas elmi müddəalar və nəticələr müəllifin Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan Azərbaycanda və xaricdə çap etdirdiyi elmi məqalələrdə, müxtəlif elmi-təcrübi konfranslardakı məruzələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** AMEA-nın Hüquq və İnsan Haqları İnstitutu.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya giriş, hər biri iki yarımfəsil olmaqla üç fəsildən, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından və əlavədən ibarətdir. Giriş - 16884 işarə, birinci fəsil - 54119 işarə, ikinci fəsil - 133031 işarə, üçüncü fəsil - 62739 işarə, nəticə - 13270 işarə, istifadə olunmuş ədəbiyyat siyahısı - 67405 işarədən ibarətdir. Tədqiqat işinin ümumi həcmi 196 səhifə, 347448 işarədir, 1 cədvəl, 7 qrafik və 5 şəkil var.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın “**Giriş**” hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın obyekti və predmeti göstərilir, məqsəd və vəzifələri müəyyən edilir, metodoloji bazası, həmçinin nəzəri və praktiki əhəmiyyəti təqdim edilir, işin aprobasiyası və strukturu haqqında məlumat verilir.

Dissertasiya işinin **"Cənubi Qafqazda təhlükəsizlik: postsovet inkişafının nəzəri aspektləri və meylləri"** adlı birinci fəslində Cənubi Qafqazın əhəmiyyətini, yerini və rolunu müəyyənləşdirən geosiyasi amillər nəzəri baxımdan araşdırılır, postsovet inkişaf dövründə Cənubi Qafqaz dövlətlərinin regional təhlükəsizliklərinin əsas problemləri və təhdidləri araşdırılır.

Bu fəslin **"Müasir geosiyasi nəzəriyyələr kontekstində geosiyasi amillər və Cənubi Qafqazın əhəmiyyəti"** adlanan birinci yarımfəslində “Qafqaz” anlayışının konseptual məlumatları, "Qafqaz" sözünün etimologiyasının müxtəlif versiyaları təhlil edilir, eləcə də Qafqaz bölgəsini siyasi strukturuna görə iki quruluş modelinə ayırd edilir: iki seqmentli və üç seqmentli model.

Cənubi Qafqazın coğrafi xüsusiyyətlərinin təhlili də aparılır və bu çərçivədə geosiyasi, geoiqtisadi, geostrateji aspektləri və amilləri ayrılır. Buna uyğun olaraq Cənubi Qafqazın geosiyasi komponentlərinin təhlilində eyni dərəcədə əhəmiyyətli olan geomədəni xüsusiyyətlərini də ayırmaq olar. Bununla yanaşı, dissertasiyada klassik və müasir geosiyasi nəzəriyyələr və konsepsiyalar çərçivəsində Cənubi Qafqazın dünya sivilizasiyasındakı rolu və yeri müəyyən edilir, misal üçün, Britaniya klassik geosiyasi məktəbinin görkəmli nümayəndəsi H.Mackinder Cənubi Qafqazı tarixin coğrafi oxunun məkan dinamikasının yaşandığı "**dünyanın ürəyi, Heartland**", “**ox arealının**” (Pivot area) bir hissəsi hesab edir.

XXI-ci əsrdə neomondializm, neoatlantizm, neoavrasiyaçılıq, islam inteqralizmi və islami mondializm kimi müasir geosiyasi nəzəriyyələr çərçivəsində Cənubi Qafqazın yeri, bu geosiyasi layihələrin və nəzəriyyələrin maraqlarının gizli qarşıdurma və rəqabət məkanı kimi təhlil edilir.

Dissertasiyanın birinci fəslinin **"Postsovet dövründə Cənubi Qafqaz dövlətlərinin regional təhlükəsizliyinə qarşı əsas çağırışlar və təhdidlər"** adlanan ikinci yarımfəslində Cənubi Qafqazın təhlükəsizlik arxitekturası təhlil edilmişdir. Bununla yanaşı, miqyasına görə bölgədəki vəziyyəti sabitləşdirə biləcək qlobal (transmilli), regional (xarici) və yerli (milli və ya daxili) təhdidlərə bölünən təhlükəsizliyə qarşı ənənəvi və yeni təhdidlər müəyyən edilmişdir. Ümumiyyətlə, Cənubi Qafqazın təhlükəsizlik təhdidləri səviyyəsinin arxitekturası sxematik olaraq aşağıdakı şəkildə təqdim olunur: təhlükəsizliyə təsir edən ən həssas və reallaşan təhdidlər hərbi və siyasi təhdidlərdir, yəni "ən yüksək dərəcə" ilə səciyyələnən təhlükə və gərginlik regionda mövcud olan münaqişələr və bölgənin hərbiləşdirilməsidir." Cənubi Qafqazın təhlükəsizliyinə təsir edən real təhdidlərə: bölgəyə ciddi dərəcədə təsiri ilə xarakterizə olunan enerji, iqtisadi, sosial, informasiya, transmilli (beynəlxalq terrorizm, ekstremizm, separatizm) və "Qafqaz identikliyi" təhdidləri daxildir. "Ayıq olmağa" çağıran potensial təhdidlər ekoloji, mədəni və s. təhlükələr aiddir.

Xüsusilə, bu yarımfəsildə, regional təhlükəsizlik çərçivəsində, region dövlətlərinin milli təhlükəsizliyinin konseptual təhlili aparılır ki, buna əsasən belə qərara gəlmək olar ki, Cənubi Qafqazın inkişaf perspektivləri, milli maraqların və milli təhlükəsizliyin təmin edilməsində fərqli strateji tərəfdaşların seçimi, bölgədəki münaqişələrin həllinə dair yanaşmalardakı fərqlər və milli təhlükə mənbələrinin qəbul edilməsindəki fərqli yanaşmalar kollektiv təhlükəsizlik sistemini yaratmaqda müəyyən çətinliklər yaradır. Belə ki, Azərbaycan və Gürcüstanın milli təhlükəsizlik konsepsiyalarına əsasən, Türkiyə strateji tərəfdaş kimi, Ermənistan Respublikasının təhlükəsizlik strategiyasına görə isə, ölkənin milli təhlükəsizliyi üçün potensial təhlükə mənbəyi kimi qeyd olunur.

Tədqiqat işinin **"Cənubi Qafqaz qlobal və regional aktorların maraqlarının kəsişdiyi bir bölgə kimi: geosiyasi aspekt"** adlı ikinci fəsildə, Cənubi Qafqazda fəal olan qlobal aktorların, ilk növbədə, ABŞ, Rusiya, Çin və Aİ-nin geosiyasi maraqları araşdırılır. Regionda mühüm geosiyasi rol oynayan regional aktorlar arasında isə İran, Türkiyə, İsrail, NATO və ATƏT

kimi regional iqtisadi və hərbi-siyasi təşkilatların fəaliyyəti araşdırılır.

Bu fəslin **"Müasir şəraitdə Cənubi Qafqazın aparıcı aktorlarının siyasəti və maraqları"** adlanan birinci yarımfəslində ABŞ-ın geosiyasi fəaliyyətinin və Cənubi Qafqaza marağının xüsusiyyətləri, Rusiyanın Cənubi Qafqazdakı strateji maraqları və siyasəti, Çinin geosiyasi maraqları və siyasəti, həmçinin Avropa İttifaqının region ölkələri ilə əməkdaşlıq sahələri araşdırılır.

ABŞ-ın Cənubi Qafqazdakı xarici siyasətinin prioritetləri Rusiyanın siyasi cilovlanması, İranın bölgədəki nüfuzunun gücləndirilməsinin qarşısının alınması, bölgənin zəngin enerji qaynaqları, nəql yolları üzərində nəzarət, siyasi qeyri-sabitliyin və təhlükəsizliyə təhdidlərin qarşısının alınmasıdır.

Rusiya Federasiyasının əsas marağı, bu məkanın öz geosiyasi sahəsi çərçivəsində qorunması və ya ən azından burada region dövlətlərinin başqa güclərin təsir dairələrinə keçməsinin qarşısının alınması ilə əlaqədardır.

Cənubi Qafqaz bölgəsi coğrafi mövqeyinə görə Çin Xalq Respublikasının xarici siyasətində prioritet əhəmiyyət kəsb edir. 2013-cü ilin sonunda "Bir Kəmər - Bir Yol" layihəsinin (İpək Yolu Təşəbbüsü (BRI)) həyata keçirilməsi ilə, Çin Avropa ilə birləşdirən infrastrukturlar yaratmaqla bütün qitədə geosiyasi nüfuzunu möhkəmləndirmək üçün regional inteqrasiyanı təklif edir. Çin iqtisadi, ticarət, siyasi, mədəni, maliyyə və təhlükəsizlik sahələrində əməkdaşlığı dərinləşdirərək bölgədəki mövcudluğunu gücləndirməyə çalışır.

Bölgənin Aİ üçün əhəmiyyəti əsasən geosiyasi, enerji faktoru və onun tranziti, rabitə rolu ilə müəyyən edilir. Bu mənada Avropa İttifaqı Cənubi Qafqazı Avropaya enerji qaynaqları tədarükündə Rusiyadan asılı olmayan alternativ bir kanala çevirməyə çalışır.

Dissertasiyanın ikinci fəslinin **"Cənubi Qafqaz bölgəsindəki müasir dəyişikliklər kontekstində regional aktorların siyasəti və maraqlarının geosiyasi aspektləri"** adlanan ikinci yarımfəslində İranın, Türkiyənin, İsrailin geosiyasi maraqları dairəsində Cənubi Qafqazın geosiyasi əhəmiyyəti, NATO-nun Cənubi Qafqazdakı

təhlükəsizlik siyasəti, ATƏT-in Cənubi Qafqazın təhlükəsizliyini təmin etməsindəki rolu araşdırılır.

İranın Cənubi Qafqazdakı strateji maraqları, Mərkəzi Asiya və Cənubi Qafqazdakı sabitliyi dəstəkləmək və bölgə dövlətləri ilə münasibətləri nizamlayaraq İslam inkişaf modelini fəal şəkildə yaymaqla ölkənin şimal bölgəsindəki sərhədlərinin təhlükəsizliyini və sabitliyini təmin etmək və bu bölgədə qeyri-region dövlətlərin mövcudluğunun qarşısının alınmasıdır.

Hazırda Türkiyə nəinki Cənubi Qafqazın geosiyasi, geoiqtisadi və hərbi-geostrateji proseslərində, eyni zamanda Avrasiyanın taleyüklü regional məsələlərinin əksəriyyətində də fəal siyasət nümayiş etdirir. Çox sayda problemləri, vəzifələrin miqyasını, bölgələrin mürəkkəbliyini nəzərə alaraq, Türkiyə regional təhlükəsizliyin təmin edilməsi məsələsində region dövlətlər ilə əməkdaşlıq etmək məcburiyyətində qalır.

İsrail Cənubi Qafqazda birbaşa aktor olmasa da, lakin Orta Şərqdəki qeyri-sabitlik səbəbindən region İsrail dövlətinin xarici siyasət doktrinasında böyük strateji əhəmiyyətə malikdir.

NATO region dövlətlərin hər biri ilə ayrı-ayrılıqda strateji əlaqələr quraraq Cənubi Qafqazda əhəmiyyətli bir aktora çevrilə bildi.

ATƏT-in Cənubi Qafqazdakı münaqişələri, xüsusən də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etmək üzrə fəaliyyətinin təhlili ATƏT-in bu qədər uzun müddət ərzində əsas vəzifəsini həll edə bilmədiyini, münaqişə tərəfləri arasında sülh düsturunu tapa bilmədiyi qənaətinə gətirir.

Dissertasiya işinin üçüncü fəsli **"Qlobal və regional aktorların geosiyasəti və Cənubi Qafqazdakı təhlükəsizlik problemlərinin həlli"** adlanır**.** Bu fəsildə regional və regionlararası siyasi və hərbi-siyasi ittifaqlar daxilində Cənubi Qafqazın təhlükəsizliyini təmin etmək üçün təşəbbüslər və proqramlar nəzərdən keçirilir, habelə müasir mərhələdə Cənubi Qafqaz regionunda sabitliyin təmin edilməsində Azərbaycan Respublikasının qlobal və regional aktorlarla xarici siyasət əlaqələrinin dinamikası araşdırılır.

Üçüncü fəslin **"Cənubi Qafqazın təhlükəsizlik problemlərinin həllində qlobal və regional aktorların siyasəti:**

**ehtimal olunan və real əməkdaşlıq modelləri"** adlanan birinci yarımfəsildə, bölgə dövlətlərinin regional təhlükəsizlik proqramları və modelləri nəzərdən keçirilir, məsələn, "3+2" ("Qafqaz Paktı", "Qafqazda Sabitlik və Əməkdaşlıq Platforması"), "3+2+2" (Azərbaycan), "3+1", "4+2", "3+3+2" (Rusiya), "3+2", "3+3" (İran), 3+3+2 (Ermənistanın təhlükəsizlik doktrinası). Tarixi bir retrospektivdə Cənubi Qafqazda əməkdaşlıq modellərinin yaradılması dövrləri araşdırılır. XX əsrin 90-cı illərindən 2008-ci ilə qədər Cənubi Qafqazda iki geosiyasi təhlükəsizlik xətti meydana çıxır:

1. Şaquli ox: Rusiya, İran, Ermənistan;
2. Üfüqi ox: Azərbaycan, Türkiyə, Gürcüstan.

2008-ci ildən bəri Cənubi Qafqazın konfiqurasiyasında dəyişiklik baş verir, bunun əsas səbəbləri:

- B. Obamanın rəhbərliyi ilə ABŞ-da demokratların hakimiyyətə gəlməsi, Rusiya ilə əlaqəli "yenidən yükləmə" (reset) siyasəti və Trampın "amerikanizm" doktrinası nəticəsində ABŞ-ın region ölkələri ilə münasibətinin dəyişilməsi;
- Xarici aktorlarının gücünün sınağına çevrilən Gürcüstandakı Avqust müharibəsi;
- Türkiyə-Ermənistan münasibətlərini tənzimləmək cəhdi;
- Türkiyənin Aİ-yə qəbul edilməsində heç bir irəliləyişin olmaması və Türkiyənin bölgədəki rolunun güclənməsi;
- Suriya böhranı və Ukraynadakı hadisələr;
- Azərbaycanın erməni işğalçıları üzərində qələbəsi ilə başa çatan və regional münasibətlər sistemini dəyişdirən İkinci Qarabağ müharibəsi və ya 44 günlük Vətən müharibəsi.

Həmçinin bu yarımfəsildə iqtisadi, enerji və hərbi-siyasi sahələrdə əməkdaşlıq modellərini Eyler dairələri metodu adlandırılan məşhur alman-rus riyaziyyatçısı Eylerin həndəsi sxemlərindən istifadə edərək müəyyənləşdirməyə və göstərməyə çalışılmışdır və beləliklə Cənubi Qafqazın müasir konfiqurasiyasının və regional təhlükəsizlik sisteminin aydın şəkildə başa düşülməsi və təqdimatı üçün alt qruplar arasındakı əlaqəni göstərmək mümkün olmuşdur. Cənubi Qafqazdakı “Eyler dairələri” metoduna əsaslanan iqtisadi, siyasi və hərbi münasibətlərin təhlili ayrı-ayrı əks, ziddiyyətli və üst-

üstə düşən ittifaqları ayırmağa imkan verdi. Bununla yanaşı, digər tərəfdən, tədqiqatın bir xüsusiyyəti, Cənubi Qafqazın bütün dövlətləri üçün ortaq, bölgənin bütün dövlətlərini birləşdirən və regional təhlükəsizliyin əsas problemlərini birlikdə həll etmək üçün hazırlanmış vahid təhlükəsizlik sisteminin olmaması fikridir.

Son geosiyasi dəyişikliklər nəticəsində bölgədəki status-kvonun dəyişməsi, yəni 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi dövründə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bir geosiyasi ittifaq-dördlüyünün Rusiya-İran-Türkiyə-Azərbaycan əməkdaşlıq modelinin yaradılmasını göstərir, burada isə əsas bağlayıcı rolu məhz Azərbaycan oynayacaq.

Üçüncü fəslin **"Müasir mərhələdə Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin edilməsində Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri"** adlanan ikinci yarımfəsildə Azərbaycanın regionun regional və qlobal dövlətləri ilə, yəni ABŞ, Rusiya, Türkiyə, İran, Gürcüstan, Qazaxıstan və Tükmənistanla xarici siyasət fəaliyyətinin dinamikası qrafik olaraq araşdırılır. Ümumiyyətlə, düşünülmüş praqmatik, yumşaq və balanslaşdırılmış xarici siyasətə əsaslanan, bir sıra siyasi, hərbi, iqtisadi, mədəni əlaqələri və diplomatik alətləri özündə cəmləşdirən "ağıllı diplomatiya" (“smart diplomacy”) və "çevik siyasət" ("flexible policy") prinsiplərinin tətbiqi sayəsində Azərbaycan Respublikası, Qafqaz-Xəzər regionunun bütün regional və qlobal aktorları ilə bərabər, ikitərəfli tərəfdaşlıq əlaqələri qurmağı bacardı, həmçinin aparıcı regional və beynəlxalq təşkilatların fəaliyyətində iştirak etdi, bununla da bölgədə tarazlığı qorumaq və lider mövqelərə nail olmaq və dövlətin sabit və təhlükəsiz inkişafını təmin etməyə bacardı.

Prezident İlham Əliyevin "ağıllı diplomatiyası" dünyanın aparıcı ölkələri ilə bir-birini tamamlayan, faydalı dostluq əlaqələri və münasibətləri yaratmaqla, böyük enerji, nəqliyyat, rabitə, mədəni layihələri həyata keçirməklə, ölkənin dünyada müsbət, tolerant bir imicinin yaradılması ilə, Azərbaycanın davamlı inkişafını təmin etməkdən ibarətdir. Prezident İlham Əliyevin "çevik siyasəti" isə ölkənin milli mənafelərinə arxalanaraq, həqiqətən bölgədəki geosiyasi vəziyyəti nəzərə alaraq, "dəmir yumruq" göstərərək, təzyiq

və gücün bütün rıçaqlarından və üsullarından istifadə edərək, sərhədlərin toxunulmazlığını təmin etmək, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etmək idi.

**Nəticədə** tədqiqata yekun vurularaq ümumiləşdirmələr aparılmış, onların əsasında nəzəri və praktiki xarakterli təklif və tövsiyələr irəli sürülmüşdür. Eyni zamanda müəllif belə bir nəticəyə gəlmişdir ki:

Birincisi, Cənubi Qafqazın təhlükəsizlik problemi, ilk növbədə, bölgədəki bütün müstəqil respublikaları üçün ortaq bir təhlükəsizlik kompleksinin olmaması ilə bağlıdır;

İkincisi, Cənubi Qafqaz regionunun mühüm geostrateji və geoiqtisadi qovşaqlarından biri kimi geosiyasi əhəmiyyəti durmadan artacaq və burada müxtəlif aktorların maraqları daim toqquşacaq və bu da öz növbəsində regional konsolidasiya və əməkdaşlığa mane yaradacaqdır. Böyük Orta Şərqin uzunmüddətli destabilizasiyası, habelə postsovet məkanında baş verən hadisələr, qlobal koronavirus (Covid-19) pandemiyası və eyni zamanda georesurslar və qlobal liderlik uğrunda yeni bir geostrateji savaş həm də Cənubi Qafqazda və bütün Qafqaz-Xəzər bölgəsində təhlükəsizlik sisteminin konfiqurasiyasına təsir göstərir. Bununla yanaşı, bölgədə lider dövlət olan Azərbaycanın erməni faşizmi üzərində qazandığı zəfərdən sonra bölgədəki vəziyyətin obyektiv qiymətləndirilməsi və ölkələrin qarşılıqlı əməkdaşlığın zəruriliyinə görə məsuliyyətinin anlaşılması bölgədəki təhlükəsizlik problemlərinin həllinə yalnız müsbət təsir göstərə bilər.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı dərc edilmiş elmi işlərində öz əksini tapmışdır:**

1. Конфликты на Южном Кавказе в контексте геополитических интересов региональных государств// Dirçəliş-XXI əsr (elmi məqalələr toplusu), Bakı, 171-172/2012, Səh.181-195
2. Роль и перспективы НАТО на Южном Кавказе//NATO-nun yeni strateji konsepsiyası və Cənubi Qafqazda təhlükəsizlik çağırışları (beynəlxalq konfrans), Bakı, 2013, Səh. 72-73
3. Геополитические факторы и значимость Южного Кавказа в контексте современных геополитических теорий//Sivilizasiya (elmi-nəzəri jurnal), Bakı, 2015, № 6, Səh.148-156
4. Основные угрозы национальной безопасности государств Южного Кавказа в системе региональной безопасности: концептуальный подход//Law and Politology (international scientific journal) № 31, Сентябрь 2015, Chisinau (Молдова), Səh.51-54
5. Геополитические интересы Турции и ее участие в обеспечении мира и стабильности в регионе Южного Кавказа//Strateji təhlil (Azərbaycan Respublikasının daxili və xarici siyasətinə,beynəlxalq münasibətlərə dair analitik jurnal), SAM-2015, № 3(14), Səh.99-113
6. Стратегические интересы и политика России на Южном Кавказе// Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi-analitik və praktiki jurnal), Bakı, 2015, № 3(43), Səh.142-147
7. Южный Кавказ в сфере геополитических интересов Ирана// Кавказ и мир (международный научный журнал), Тбилиси-2016, № 21, Səh.94-97
8. Особенности геополитической активности и заинтересованности США на Южном Кавказе// Dövlət İdarəçiliyə: nəzəriyyə və təcrübə, 2(54), Bakı, 2016, Səh. 265-272
9. Политика и интересы Европейского Союза на Южном Кавказе//«Beynəlxalq və milli səviyyədə davamlı inkişaf strategiyalarının siyasi və iqtisadi aspektləri (Respublika səviyyəli Elmi-Praktiki konfrans), Bakı, 10-11 may, 2016, Səh.70-74

10. Региональная политика НАТО на Южном Кавказе// AXC-nın 100 illik yubileyi və Azərbaycan xalqının Ümummilli lideri H.Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Qloballaşma və AR-da Hüquq elminin əsas inkişaf istiqamətləri" mövzusunda Beynəlxlaq elmi-praktiki konfrans. BDU, Bakı, 29-30 may, 2018, səh.80-84
11. Основные угрозы региональной безопасности государств Южного Кавказа//ADU, "Beynəlxalq münasibətlərin aktual problemləri" adlı Respublika elmi konfransı, Bakı, 25 oktyabr, 2019, s.82-85
12. Американизм VS Глобализм: перестройка американской геополитики//VI Международная научно-практическая конференция "Scientific achievements of modern society", Ливерпуль, Великобритания, 5-7 fevral, 2020, s.1095-1103
13. Динамика двусторонних отношений Азербайджанской Республики и Российской Федерации в области безопасности на Южном Кавказе// Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, Bakı, 2020, № 3(68), Səh.114-121

Dissertasiyanın müdafiəsi **25 iyun 2021-ci il** tarixində saat **14:00**-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küç., 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat **24 may 2021-ci il** tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.05.2021
Kağızın formatı:A5
Həcm:34101
Tiraj:30